| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu kreditlərin sayı | **ART 221 Təsviri incəsənətin tədrisi metodikası, 6 AKTS** |
| | Departament | Təhsil |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2025/26-cı tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Dosent, p.ü.f.d.Cəlilova Yeganə |
| | E-mail: | sahiba68@mail.ru |
| | Mühazirə otağı/Cədvəl | Bakıxanov korpusu, VI günlər |
| | Məsləhət saatları | Razılaşdırılaraq təyin etmə ilə |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər və dərs vəsaitləri:**<br>1. Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s.<br>2. Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı- 2016<br>3. Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı- 2011<br>4. I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2015-2022<br><br>**Əlavə dərsliklər, vəsaitlər və mənbələr:**<br>1. Динамический канон изображение головы человека. Николай Куприянов. 2025 .<br>2. Основы изобразительной грамоты. Беда Г. 2021. Стр.128<br>3. Теория цвета. Настольный путеводитель: от базовых принципов до практических решений \| Моллика Патти. 2024<br>4. Натюрморт. Рисуем шаг за шагом. Роландер Натан, Тавонатти Миа. 2013<br>5. Практикум по композиции. Голубева Ольга Леонидовна, Голубева А. А. 2025<br>6. Рисунок. 2 год обучения. Учебное пособие для организаций дополнительного образования. 2025. Стр. 21-69<br>7. Композиция станковая. Учебное пособие для ДХШ и ДШИ. Часть 1.\| Филиппова А. 2025. стр. 5-27<br>***Azərbaycan dilində dərslik və dərs vəsaiti yoxdur.*** | |
| **Kursun təsviri** | Təsviri incəsənətin tədrisi metodikası fənni tələbələrin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin zənginliyi və rəngarəngliyini tələbələrə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsi ilə | |

| | |
|---|---|
| | əyani şəkildə aşılanması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır. Tarixən yaradılmış təsviri sənət əsərləri cəmiyyətin mənzərəsini tələbələrə daha dolğun və obyektiv çatdırmaq imkanlarına malikdir.<br>Təsviri incəsənətdə obyektivliklə bərabər, subyektivliyin mövcudluğu tələbəyə fərd-cəmiyyət münasibətlərini dərk edib qiymətləndirməyə köməklik göstərir. Vizual özünüifadə insanın mənəvi və praktik tələblərinin ödənilməsini, şəxsiyyətin təbiətə və cəmiyyətə inteqrasiyasını təmin edir.<br>Təsviri incəsənətin tədrisi metodikası fənni həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatları təsvirlərdə əks etdirməyə, şagirdə öyrətmə metodikasını araşdırmağa imkanlar yaradır.<br>Tələbə tərəfindən yaradılan təsviri görüntülər (obrazlar) həyat gerçəkliyinin daha dolğun və obyektiv şəkildə dərk olunmasını, onun şəxsi ideyalar, hisslər və təxəyyül prizmasından keçirilməsini təmin edir.<br>Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir.<br>Təsviri incəsənət fəaliyyəti tələbələri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə və bu düşüncələri vizüal obrazlarda əks etdirməyə istiqamətləndirir. |
| **Kursun məqsədləri** | -Tələbələrin ətrafda gördükləri, hiss etdiklərini təhlil edib rəsmlərində əks etdirmək.<br>- Təsvir prosesinin metodikasını mənimsətmək.<br>- Estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, incəsənət əsərlərini duyub qiymətləndirən, obrazlı və simvolik düşüncə tərzinə malik şəxsiyyət formalaşdırmaq. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənn tədrisinin nəticələri:**<br>➢ Tələbə təsviri sənətlə bağlı əsas anlayışları yadda saxlayacaqlar.<br>➢ Müxtəlif obyektləri təsvir edə biləcəklər.<br>➢ İstənilən təsvirin tədrisi metodikasını nümayiş etdirəcəklər.<br>➢ Tələbələrdə bədii zövq, estetik mədəniyyət, rəng, forma və məkan hissiyyatı, vizual yaddaş, milli təsviri və dekorativ sənət növlərinə məhəbbət, ümumbəşəri incəsənət nümunələrinə, habelə bədii yaradıcılığa meyl və maraq formalaşacaq, sənət əsərlərini tənqidi təhlil edəcəklər.<br>➢ Tələbələrdə mücərrəd və məntiqi təfəkkür, əməksevərlik bacarıqları inkişaf etdirmək.<br>➢ Tələbələr yazdıqları icmalları dəyərləndirəcəklər.<br><br>**Əldə olunacaq təcrübə:**<br>➢ Təsviri incəsənətin cəmiyyətdə rolunu izah edir.<br>➢ Azərbaycanın tanınmış təsviri və dekorativ sənət nümayəndələri və onların yaradıcılığından nümunələr haqqında zəruri məlumatları şərh edir. |

| | | | |
|---|---|---|---|
| | ➢ Təsviri və dekorativ sənət növlərinin tədrisi metodikasını tanıyır, onları xarakterik cəhətlərinə görə fərqləndirir.<br>➢ Təsviretmə prosesində müvafiq iş ardıcıllığına əməl edir və sadə təsvir üsullarını mənimsədiyini nümayiş etdirir.<br>➢ Özünün və digərlərinin yaradıcı işləri haqqında mülahizələrini bildirir.<br>➢ Sadə kompozisiyaları şagirdlərə öyrətmək yollarını tapır və onların ayrı-ayrı hissələrini mütənasib qaydada yerləşdirir.<br>➢ Sadə tərtibati işləri yerinə yetirir.<br>➢ Sadə təsviri sənət nümunələrinin məzmununu, onlarda ifadə olunan əsas fikri şərh edir. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | Noyabr | 30 |
| | **Quiz (2)** | Oktyabr, Dekabr | 5 |
| | **Fəallıq** | Semestr müddətində | 5 |
| | **Tapşırıq və testlər** | Semestr müddətində | 10 |
| | **Sınaq dərsin təqdimatı** | Dekabr | 10 |
| | **Final imtahanı** | Yanvar | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (tədris siyasəti və davranış)** | ***<u>Fəallıq</u>***<br>Dərs zamanı tələbələrin nəzəri və təcrübi mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır.<br><br>***Quiz***<br>Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri quizlərlə yoxlanılacaqdır. Açıq suallara cavab yazılır və tapşırılan rəsm (dərs zamanı çəkdikləri rəsm və ya onun təsviri metodikasına aid olan) təsvir edilir və ya test yazılır.Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br><br>***Tapşırıq və testlər***<br>Həftəlik tələbələrə keçirilən mövzular üzrə oxu və iş üzrə tapşırıq və testlər verilərək, oxuyub mənimsədikləri nəzəri biliklər yoxlanılacaq. Praktik dərsdə verilən tapşırıqlarda həm obyek-tin özünün təsviri tələ-bələrə öyrədilir. Həm də tapşırğı şagirdlərə hansı ardıcıllıqla öyrətmək aşılanır.<br><br>***Dərs təqdimatı (prezentasiya)***<br>Kursun sonunda təsviri incəsənətlə bağlı qrup şəklində, məşğələ növ-lərindən birinə aid sınaq (açıq) dərs təqdim edilir. Bu sınaq dərsinin köməyi ilə | | |

tələbələrin həm nəzəri və həm də praktik bilikləri qiymətləndirilir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.

**Ümumi qaydalar**

***Davamiyyət***

Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayib) buraxan tələbələr imtahana buraxılmır. (3 qayıb = 1 bal). Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.

***İmtahanlar***

Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

***İmtahan qaydalarının pozuntuları***

İmtahanlarda mövcud qaydaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur.

***Tələbənin kursu başa vurması***

60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 baldan 57, 58 və ya 59 bal taplayan tələbələr dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər.

***Dərslərdə davranış***

Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir.Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix (planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 20.09.2025 | **Mövzu 1.** Təsviri incəsənətin tədrisinin tarixi. **Praktik məşğələ № 1**. Yuvarlaq səthli əşyaların tədrisi metodikası | Kursun sillabusu. Игры в искусство. Люси Виноград. 2025<br>Натюрморт. Рисуем шаг за шагом. |

| | | | |
|---|---|---|---|
| | | | Роландер Натан, Тавонатти Миа. 2013, стр. 40-50 |
| 2. | 27.09.2025 | **Mövzu 2**. Təsviri incəsənətin tədrisində əsas didaktik prinsiplər. **Praktik məşğələ № 2.** Assimmetrik əşyaların tədrisi metodikası | Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s., 51-73<br><br>Основы рисунка и живописи. Н.Б.Ульянова, Е.В.Михайлова, О.А.Крыжановская. Москва-2023 |
| 3. | 04.10.2025 | **Mövzu 3.** Təsviri incəsənət kurikulumun təhlili. **Praktik məşğələ №** 3. Natürmortun tədrisi metodikası. | Натюрморт. Рисуем шаг за шагом. Роландер Натан, Тавонатти Миа. 2013, стр.12-39<br>Основы изобразительной грамоты. Беда Г. 2021, стр.22-96 |
| 4. | 11.10.2025 | **Mövzu 4.** Fəal dərsin mərhələləri və motivasiya. **Praktik məşğələ №** 4. Portretin tədrisi metodikası | Динамический канон изображение головы человека. Николай Куприянов. 2025<br>Практикум по композиции. Голубева Ольга Леонидовна, Голубева А. А. 2025, стр. 3-56<br><br>Яков Тугендхольд. Искусство октябрьской эпохи. 2025 |
| 5. | 18.10.2025 | **Mövzu 5.** Fəal təlim və onun mexanizmləri, fasilitasiya qaydaları. **Praktik məşğələ №** 5. Təsviri incəsənət fənninin məzmun xətti, | Игры в искусство. Люси Виноград. 2025<br><br>Основы изобразительной |

| | | | |
|---|---|---|---|
| | | əsas və alt standartların tapılması. Mövzuya uyğun standartların seçilməsi. | грамоты. Беда Г. 2021, стр.6-18<br><br>Динамический канон изображение головы человека. Николай Куприянов. 2025 |
| 6. | 25.10.2025 | **Mövzu 6.** Təsviri incəsənətdə fəal təlim üsullarının tətbiqi və iş formaları.<br>**Praktik məşğələ №** 6. Motivasiya nümunələrinin hazırlanması. | Основы изобразительной грамоты. Беда Г. 2021, 25-84<br><br>Теория цвета. Настольный путеводитель: от базовых принципов до практических решений \| Моллика Патти. 2024, стр. 22-52 |
| 7. | 01.11.2025 | **Mövzu 7**. Dərs nümunəsi, alt standart və təlim nəticələri.<br>**Praktik məşğələ №** 7. Dərsin mərhələlərindən tədqiqatın aparılması üçün əyani vəsaitin hazırlanması. | «Изобразительное искусство» 2024/2025, стр. 8-80<br>Как нарисовать натюрморт с фруктами поэтапно с фото гуашью для начинающих. 2025 |
| **Aralıq imtahanı** | | | |
| 8. | 08.11.2025 | **Mövzu 8.** Təsviri incəsənətdə qiymətləndirmə növləri.<br>**Pratik məşğələ №** 8 Qiymətləndirmə nümunələrinin hazırlanması. | Рисунок. 2 год обучения. Учебное пособие для организаций дополнительного образования. 2025. Стр. 21-69<br><br>Композиция станковая. Учебное пособие для ДХШ и ДШИ. Часть 1.\| Филиппова А. стр. 5-27 |

| | | | |
|---|---|---|---|
| 9. | 15.11.2025 | **Mövzu 10.** Naturadan rəsm məşğələləri.<br><br>**Praktik məşğələ №** 10. Təsviri incəsənət məşğələlrindən birinə aid icmalın tərtibi. | Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları. Bakı-2016, 5-35. I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2017-2022, 1-45 |
| 10. | 22.11.2025 | III BÖLMƏ. TƏSVİRİ İNCƏSƏNƏT MƏŞĞƏLƏLƏRİNİN MƏZMUNU VƏ TƏDRİSİ METODİKASI<br>Mövzu № 11. Mövzu üzrə rəsm məşğələləri.<br>Praktik məşğələ № 11.Tərtib olunmuş icmalların müzakirəsi. | Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s., 3-75<br>Рисунок. 2 год обучения. Учебное пособие для организаций допол-нительного образования. 2025. Стр. 21-69<br>Композиция станковая. Учебное пособие для ДХШ и ДШИ. Часть 1.\| Филиппова А. стр. 5-27 |
| 11. | 29.12.2025 | Mövzu № 12. Dekorativ-tətbiqi sənət məşğələləri.<br>Təqdimat 1. Naturadan rəsm məşğələsi nümunəsinin təqdimatı. | Композиция станковая. Учебное пособие для ДХШ и ДШИ. Часть 1.\| Филиппова А. стр. 5-27<br><br>Методика преподавания изобразитель-ного искусства. 14 мая 2024 г. — Активизаци я творческой деятельности учащихся 1-4 классов |

| | | | |
|---|---|---|---|
| | | | на<br>уроках изобразительн ого искусства. Стр.12-48 |
| 12. | 06.12.2025 | Mövzu 13. Yapma məşğələləri.<br>Təqdimat 2. Mövzu üzrə rəsm məşğələsi nümunəsinin təqdimatı. | Особенности преподавания учебного предмета "Изобразительное искусство" в 2024–2025 учебном году. Автор: ЛВ Черная, стр. 20-76 |
| 13. | 13.12.2025 | Mövzu 14. Təsviri incəsənət haqqında söhbət. | Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı-2016, 70-80<br>I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2017-2022 |
| 14 | 20.12.2025 | Təqdimat 3. Dekorativ-tətbiqi sənət məşğələsi nümunəsinin təqdimatı. | Рисунок. 2 год обучения. Учебное пособие для организаций дополнительного образования. 2025. Стр. 21-69 |
| 15 | 27.12.2025 | Keçirilən mövzulara ümumi nəzər salma və təkrar | |
| **Final imtahanı** | | | |